# O müdhiş gecə...

## Gəncə, 11 oktyabr, 2020-ci il.

**O gecə tez yatmışdılar... Valideynləri də bir qədər toxdamış, arxayınlaşmış və oktyabrın 4-də, 5-də və 8-də Gəncəyə atılmış raket zərbələrini sanki unutmuşdular. Həmin günün axşamı Moskvada Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin iştirakı ilə atəşkəsin dayandırılması haqqında razılığın əldə edilməsi də, görünür, körpələrə ertədən "yuxunuz şirin olsun, gedin yatın" deməyə imkan vermişdi. Amma bir qədər sonra, gecə saat 2-də bu günahsız balaların gördükləri qorxulu yuxular çin oldu və bir daha ayılmadılar... Nigar və Narin Əsgərova bacıları, Mədinə Şahnəzərli, Orxan və Məryəm Əmrahlı, Artur Mayakov...**



O dəhşətli gecədə və ondan bir neçə gün sonra 3 ailənin üzvü olan 4 uşaq – bacı-qardaş Sevil və Hüseyn Əliyevlər, Nilay Əliyeva, Xədicə Şahnəzərli hər iki valideynini, nənələrini-babalarını itirdilər...

...Bayaqdan Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyevlə söhbət edirəm. Oktyabrın 11-də Gəncəyə atılan həmin raket zərbələrindən danışır və indinin özündə də həyəcanını, o gecədə yaşanan ağrıları gizlədə bilmir:

– Həmin dəhşətli gecənin gündüzü, yəni oktyabrın 10-da cəbhədə qəhrəmancasına şəhid olan Röyan Hüseynovu və Mirhüseyn Seyidzadəni son mənzilə yola salmışdıq. Dəfn mərasimlərində, az qala, bütün şəhər iştirak etmişdi. Onsuz da ermənilərin heç bir vədinə inanmırdıq. Amma ağlımıza belə gəlməzdi ki, atəşkəs haqqında saziş imzalanan vaxtdan bir neçə saat sonra onlar Gəncəyə yenidən raketlər atacaq, bu qədər insan qətlinə, dağıntılara bais olacaqlar.

Oktyabrın 11-də gecə saat 2 radələrində onlar bu vəhşiliyi yenidən təkrar etdilər. Ermənistan ərazisindən şəhərin atəşə tutulması nəticəsində 10 nəfər həlak oldu, 30-dan çox insan müxtəlif dərəcəli xəsarət aldı, Ələkbər bəy Rəfibəyli küçəsində yerləşən 7 ədəd çoxmənzilli yaşayış binası tamamilə dağıldı, iri ticarət mərkəzi və ətrafdakı digər qeyri-yaşayış sahələrinə külli miqdarda ziyan dəydi, 20-yə yaxın nəqliyyat vasitəsi yararsız hala düşdü.

O gecə mən bir daha əmin oldum ki, bizim xalq necə də yekdil, təəssübkeşdir. İnsanlar heç nədən qorxmayaraq, bəzən öz həyatlarını da təhlükəyə ataraq dağıntılar altında qalanları çıxarmağa kömək etmək istəyirdilər. Düzdür, əlaqədar qurumların əməkdaşları bu işləri özləri görürdülər və çalışırdılar ki, mülki şəxsləri çox yaxına buraxmasınlar. Həlak olanların yaxınlarını, uşaqları, evsiz-eşiksiz qalanları hərə bir tərəfə çəkib aparırdı. O anlarda Gəncə birliyin, yekdilliyin, mərdliyin, böyüklüyün simvoluna çevrilmişdi. Ermənilər isə bu iyrənc, insanlığa yaraşmayan hərəkətləri ilə nifrət və qəzəbə tuş gəlmişdilər, lənətlənmişdilər, digər dövlətlərin, xalqların da gözündən birdəfəlik düşmüşdülər...







Azərbaycan Prezidenti İlham Əliyevin bu il yanvarın 30-da Gəncədə olarkən və həmin əraziyə baxarkən söylədikləri sözlər yadıma düşdü: – "Bilirsiniz, bu dağılmış evlərin önündə olmaq, bax, bu dəhşətli mənzərəni seyr etmək hər bir azərbaycanlı üçün çox ağırdır. İkinci Qarabağ müharibəsi dövründə Gəncə dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb. Şəhərə 13 raket atılıb, onlardan 8-i əfsuslar olsun ki, partlayaraq insanların həyatına son qoyub. Ancaq bu erməni namərdliyi nəticəsində nə qədər vətəndaşımızın ömrü yarımçıq qaldı. Onların arasında uşaqlar, qadınlar, yaşlı insanlar da var idi, 6 uşaq həlak oldu. Təkcə Gəncə şəhərində 26 mülki vətəndaş erməni faşizminin qurbanı oldu..."

Yeri gəlmişkən qeyd edək ki, oktyabrın 11-də Ermənistan ordusunun dağıtdığı həmin ərazidə Memorial Xatirə Kompleksi inşa olunacaq və dövlət başçımız onun təməlini qoyub.

Yuxarıda qeyd etdik ki, Gəncədə həmin günlər adamlar bir yumruq kimi birləşmişdi. Ermənilər bu vəhşilikləri törətməklə elə bilirdilər ki, dinc sakinləri qorxuda biləcəklər, onların doğma yuvalarını tərk etməsinə nail olacaq, Azərbaycan Prezidentindən uğurlu əməliyyatları dayandırmağı tələb edəcəklər. Amma bu olmadı! Biz tarixi qələbə qazandıq!

...Bir-birindən yaraşıqlı hündür mərtəbəli binaların arasındayam. Şən, qayğısız uşaqların səsi bir-birinə qarışıb. Həyətlərdə onlar üçün hər cür şərait yaradılıb. Mənzillərə də baxıram. Geniş, işıqlı, mebel dəstləri olan mənzillərdir. Binalardan birinin sakini Zahid Babazadə ilə söhbət edirəm. Deyir ki, qızı, həyat yoldaşı, onun anası oktyabrın 11-də atılan raket zərbələrinin qurbanı olublar. Onların övladlarına – nəvəmə üçotaqlı mənzil veriblər:

– Dövlətimizdən, Prezidentimizdən, Mehriban xanımdan çox razıyıq. Bu gördüyünüz binalarda yaşayanlar Gəncə terroru qurbanlarının ailə üzvləri, digər şəhidlərin doğmaları, qazilər və imkansız adamlardır. Bizim, demək olar ki, hamımızın dərdi birdir: övlad dərdi. Başqa problemimiz yoxdur. Hara gedirik xoş üzlə qarşılaşırıq, diqqət, qayğı görürük. Buradakı qonum-qonşu bir-biri ilə o qədər qaynayıb-qarışıb ki, adam fəxr edir. Dediyim kimi, dərdi bölüşməyə səni başa düşən adam olanda xeyli yüngülləşirsən.

Qeyd edək ki, Gəncə Azərbaycan Respublikasının Silahlı Qüvvələri Fondu və YAŞAT Fonduna müxtəlif məbləğlərdə ianələr edib. Şəhidlərin dəfnlərində, onların yas mərasimlərində, yaralıların müalicə aldıqları xəstəxanalarda olub, daim diqqət və qayğı göstəriblər. Keçən il və bu il şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov tərəfindən 96 vətəndaş qəbulu keçirilib ki, orada da iştirak edən vətəndaşların böyük əksəriyyətini şəhid ailələri, müharibə iştirakçıları və müharibə əlilləri təşkil edib.

Eyni zamanda, 221 şəhid, müharibə iştirakçısı və əlilinin ailə üzvləri "DOST iş Mərkəzi" MMC-də işə qəbul olunmuşdur.

Gəncədə şəhidlərin adlarının əbədiləşdirilməsi istiqamətində də müvafiq işlər aparılıb. Belə ki, şəhid Mirhüseyn Seyidzadə, Bəhruz İsgəndərov və Qəzənfər Məmmədovun adları müvafiq küçələrə verilib. Bununla yanaşı, bir çox təhsil müəssisələrinə şəhid adlarının verilməsi üçün müvafiq qurumlar qarşısında vəsatət qaldırılıb.

Sözügedən kateqoriyadan olan şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə şəhər icra hakimiyyəti başçısının müvafiq sərəncamları ilə 270 şəhid ailəsi, müharibə əlili mənzil uçotuna götürülüb.

...Oktyabrın 11-də Gəncəyə atılan növbəti raket zərbələrindən düz iki il vaxt keçir. Yenə illər keçəcək, həmin gecə o günahsız 10 nəfərin – körpələrin, qocaların, qadınların xatirəsi unudulmayacaq. Orada ucaldılacaq Xatirə kompleksi və olduğu kimi saxlanılacaq dağıntıların bir hissəsi, o müdhiş gecəni yada salacaq, ziyarətə gələnləri kədərləndirməklə yanaşı həm də düşündürəcək: "Günahsız, dinc insanları öldürənlərin üzə çıxmağa haqqı varmı?"

Gəncənin ağır günləri arxada qalıb. Yadda iki il qabaq, oktyabrın bu günü birlik, mütəşəkkillik, mərdlik, Prezidentimizə sədaqət, inam, onun ətrafında sıx birləşmək və təbii ki, düşmənə nifrət qalıb…

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri,***
**Gəncə**